# AZƏRBAYCAN RESPUBLİKASININ
# AUDİTORLAR PALATASI ŞURASININ
# QƏRARI

**Bakı şəhəri** **№ 242/5** **11 iyun 2013-cü il**

**Auditorlar Palatasının 2013-2015-ci illər üzrə iş planında dəyişiklik edilməsi barədə**

Auditorlar Palatasının 2013-2015-ci illər üzrə iş planının - "Auditdə keyfiyyətə nəzarətin aktual problemləri" barədə 6.2.5-ci bəndin icrası ilə əlaqədar Palata Aparatının rəhbəri Q.Bayramovun və Keyfiyyətə nəzarət və hüquqi təminat idarəsinin rəisi M.Abbasovun Palatanın 2013-2015-ci illər üzrə iş planında müəyyən dəyişiklik edilməsi barədə 2013-cü il 5 iyun tarixli təqriri məruzəsini müzakirə edərək, Auditorlar Palatasının Şurası

**QƏRARA ALIR:**

1. Palata Aparatının rəhbəri Q.Bayramovun və Keyfiyyətə nəzarət və hüquqi təminat idarəsinin rəisi M.Abbasovun Palatanın 2013-2015-ci illər üzrə iş planında müəyyən dəyişikliklər edilməsi barədə 2013-cü il 5 iyun tarixli təqriri məruzəsi nəzərə alınsın (əlavə olunur).
2. Azərbaycan Respublikası Prezidentinin 2012-ci il 5 sentyabr tarixli 2421 nömrəli sərəncamı ilə təsdiq edilmiş "Açıq Hökümətin təşviqinə dair 2012-2015-ci illər üçün Milli Fəaliyyət Planı"nın və "Korrupsiyaya qarşı mübarizəyə dair 2012-2015-ci illər üçün Milli Fəaliyyət Planı"nın nəzərdə tutulmuş vəzifələrin icrası ilə əlaqədar Azərbaycan İqtisadçılar İttifaqı, Azərbaycan Respublikasının Auditorlar Palatası və Azərbaycanın Professional Maliyyə Menecerləri Assosiasiyası tərəfindən 2013-cü il 26-28 sentyabr tarixlərində "Daxili nəzarət və risklərin idarə olunması" mövzusunda Mühasiblərin və Auditorların IY Avrasiya Forumunun birgə keçirilməsi ilə əlaqədar olaraq Auditorlar Palatasının 2013-2015-ci illər üzrə iş planının 6.2.5-ci bəndində nəzərdə tutulmuş "Auditdə keyfiyyətə nəzarətin aktual problemləri" adlı mövzunun qeyd olunan Forumun ayrıca seksiyasında müzakirə olunması məqsədə-müvafiq hesab edilsin.
3. Sədrin müşaviri A.Kərimova tapşırılsın ki, Auditorlar Palatasının 2013-2015-ci illər üzrə iş planının 6.2.5-ci bəndində müvafiq dəyişikliyi nəzərə alsın.
4. Bu qərar Palatanın internet səhifəsində yerləşdirilsin.

**ŞURANIN SƏDRİ** **V.NOVRUZOV**